**Azərbaycan Dövlət İqtisad Unuversitetinin**
**(UNEC) rektoru professor Ədalət Muradova**

**Hörmətli Ədalət müəllim!**

Sizi və rəhbərlik etdiyiniz UNEC-in bütün professor-müəllim heyətini, orada təhsil alan tələbələri, magist və doktorantları unuversitetin yaranmasının 90 illik yubileyi münasibəti ilə ürəkdən təbrik edir, hər birinizə şərəfli işinizdə yeni-yeni nailiyyətlər, şəxsi həyatınızda cansağlığı və səadət arzulayıram.

Tarix baxımdan qısa görünən bu zaman dövründə doğma universitetimiz şərəfli yol keçmişdir. Respubllikamız üçün yüksək ixtisaslı iqtisadçı kadrların hazırlanmasında öncül mövqe tutan UNEC Azərbaycanın gələcək inkişafı, elm və təhsilinin çiçəklənməsi istiqamətində daim mühüm islahatlar aparmış, xalqımıza və dünya elminə layiqli kadrlar, alimlər bəxş etmişdir.

Müasir həyatın tələblərinə uyğun olaraq son illərdə Azərbaycan Respublikası Prezidentinin dəstəyi və sizin rəhbərliyinizlə universitetdə aparılan islahatlar, bu islahatlar proqramı çərçivəsində baş verən dəyişikliklər, tədris plan və proqramlarının Avropa standartlarına uyğunlaşdırılması biz keçmiş məzunları da sevindirir.

Təsadüfi deyildir ki, UNEC ölkəmizdə iqtisadiyyatın bütün sahələrini sənaye, ticarət, maliyyə, statistika, vergi sistemi, marketinq, menecment və digər müasir tələblərə uyğun yaradılmış ixtisaslar üzrə kadr hazırlığını həyata keçirən bir elm ocağı, tədqiqat mərkəzidir. Bu gün cənab Prezidentin rəhbərliyi ilə ölkə iqtisadiyyatını irəli aparmaq, dünyanın mürəkkəb maliyyə, iqtisadi sisteminə qoşulmaq üçün müasir, hazırlıqlı, xarici dilləri bilən, dünya təcrübəsini mənimsəmiş gənclərin yetişdirilməsi vacib məslələrdəndir. İnamla deyə bilərik ki, bu proses Sizin rəhbərliyinizlə universitetin professor-müəllim kollektivi tərəfindən uğurla həyata keçirilir.

Hörmətli Ədalət müəllim, bir daha Sizi və şəxsinizdə UNEC-in bütün kollektivini əlamətdar yubiley münasibəti ilə ürəkdən təbrik edirəm.

Bayramınız mübarək!

***Hörmətlə,***

***Cəlil Baxşıyev, Lerik Rayon İcra Hakimiyyəti başçısının birinci müavini, YAP rayon təşkilatının sədri, Azərbaycan Dövlət İqtisad Universitetinin 1985-ci il buraxılış məzunu***